**“Azərbaycan Sənaye Sığorta Şirkəti”**
**Açıq Səhmdar Cəmiyyəti**

**31 dekabr 2015-ci il tarixinə**

# MALİYYƏ HESABATLARI VƏ MÜSTƏQİL AUDİTOR RƏYİ

**"Azərbaycan Sənaye Sığorta Şirkəti" Açıq Səhmdar Cəmiyyəti**

***31 dekabr 2015-ci il tarixinə bitən il üzrə maliyyə hesabatlarının hazırlanması və təsdiq edilməsi üzrə rəhbərliyin məsuliyyəti haqqında hesabat***

Rəhbərlik Cəmiyyətin 31 dekabr 2015-ci il tarixinə balansı və mənfəət və zərərlərini düzgün əks etdirən hesabatların Maliyyə Hesabtalarının Beynəlxalq Standartlarına ("MHBS") uyğun olaraq hazırlanmasına görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırlayarkən rəhbərlik aşağıdakılara cavabdehdir:

- Müvafiq mühasibat uçotu prinsiplərinin seçilməsinə və onların ardıcıl sürətdə tətbiqinə;
- Ədalətli və düzgün qərarların verilməsinə və qiymətləndirmələrin aparılmasına;
- Maliyyə hesabatlarında açıqlanmış və izah edilmiş hər hansı mühüm kənarlaşmaların MHBS-in tələblərinə uyğunluğuna; və
- Cəmiyyətin təxmin edilə bilən dövr ərzində öz fəaliyyətini davam etdirməsi mümkün olmayana qədər maliyyə hesabatlarının fasiləsizlik prinsipi əsasında hazırlanmasına.

Həmiçinin rəhbərlik aşağıdakılara görə məsuliyyət daşıyır:

- Cəmiyyətdə effektiv və sağlam daxili nəzarət sisteminin qurulmasına, tətbiqinə və saxlanılmasına;
- Cəmiyyətin maliyyə vəziyyətini hər zaman dəqiq açıqlayan və Cəmiyyətin maliyyə hesabatlarının MHBS-in tələblərinə uyğun olduğuna təminat verən mühasibat yazılışlarının hər zaman dəqiq və düzgün saxlanılmasına;
- Mühasibat yazılışlarının Azərbaycan Respublikasının qanuvericiliyinə və mühasibat uçotu qaydalarına uyğun aparılmasına;
- Cəmiyyətin aktivlərinin mühafizə edilməsi üçün mümkün tədbirlərin görülməsinə;
- Saxtakarlıq hallarının və digər pozuntuların müəyyən edilməsinə və qarşısının alınmasına.

31 dekabr 2015-ci il tarixinə bitən il üzrə maliyyə hesabatları Cəmiyyətin rəhbərliyi tərəfindən təsdiq olunmuşdur.

**ASC-nin Rəhbəri**

Mündəricat


| | Səhifə |
|---|---|
| **Müstəqil Auditorun Rəyi** | 1-2 |
| **Balans Hesabatı** | 3-4 |
| Mənfəət və Zərərlər Hesabatı | 5 |
| **Pul Vəsaitlərinin Hərəkəti Hesabatı** | 6 |
| **Kapitalda Dəyişikliklər Hesabatı** | 7 |
| Maliyyə Hesabatları üzrə Şərhlər və Qeydlər | 8 – 14 |

*31 dekabr 2015-ci il tarixinə Maliyyə vəziyyəti haqqında Hesabat (Mühasibat balansı)*

| | 2015 | 2014 |
|---|---|---|
| **I .UZUNMÜDDƏTLİ AKTİVLƏR** | **3 411 656.18** | **3 473 014.05** |
| Torpaq, tikili və avadanlıqlar | 144 122.67 | 185 110.75 |
| Qeyri-maddi aktivlər | 157 765.27 | 156 921.84 |
| Uzunmüddətli maliyyə aktivləri | 3 104 100.00 | 3 104 200.00 |
| İştirak payı metodu ilə uçota alınmış investisiyalar | 4 049.00 | 4 049.00 |
| Sair aktivlər | 1 619.24 | 22 732.46 |
| **II . QISAMÜDDƏTLİ AKTİVLƏR** | | |
| **Ehtiyatlar:** | | |
| **Debitor borcları:** | **5 088 337.14** | **4 761 238.10** |
| birbaşa sığorta üzrə | 826 121.60 | 3 323 183.37 |
| Təkrarsığorta əməliyyatları üzrə: | 6 621.98 | 32 130.03 |
| büdcə üzrə | 0.00 | 965 417.33 |
| sair debitorlar | 4 255 593.56 | 440 507.37 |
| **Pul vəsaitləri və onların ekvivalentləri:** | **12 890 525.73** | **11 118 592.46** |
| kassa | 345.85 | 3 715.35 |
| hesablaşma hesabı | 79 417.08 | 186 006.97 |
| valyuta hesabı | 544 466.80 | 4 870.14 |
| depozit hesablar | 12 266 296.00 | 10 924 000.00 |
| **Qısamüddətli maliyyə aktivləri:** | **00.00** | **0.00** |
| dövlət qiymətli kağızları | 00.00 | 0.00 |
| Sığorta ehtiyatlarında təkrarsığortaçıların payı: | **1 254 549.12** | **1 214 904.74** |
| həyat sığortası sahəsi üzrə | 0.00 | 0.00 |
| qeyri-həyat sığortası sahəsi üzrə | 1 254 549.12 | 1 214 904.74 |
| Sair qısamüddətli aktivlər: | **410.00** | **14 516.57** |
| gələcək hesabat dövrlərinin xərcləri | 0.00 | 0.00 |
| verilmiş avanslar | 0.00 | **0.00** |
| təhtəl hesablar | 410.00 | 14 516.57 |
| **CƏMİ AKTİVLƏR** | **22 645 478.17** | **20 582 265.92** |

| KAPİTAL VƏ ÖHDƏLİKLƏR | 2015 | 2014 |
|---|---|---|
| **I. KAPİTAL** | **15 129 057.04** | **9 471 652.86** |
| Ödənilmiş nominal (nizamnamə) kapitalı | 11 000 000.00 | 11 000 000.00 |
| Bölüşdürülməmiş mənfəət (zərər) | 4 129 057.04 | -1 528 347.14 |
| Hesabat dövründə xalis mənfəət (zərər) | 5 657 404.18 | 1 539 752.00 |
| Mənfəət (zərər) üzrə düzəlişlər | -1 528 347.14 | 11 404.86 |
| **II. UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | **7 104 968.55** | **10 136 707.10** |
| Sığorta ehtiyatları: | 6 423 804.84 | 9 628 041.69 |
| Həyat sığortası sahəsi üzrə : | | |
| Qeyri-həyat sığortası sahəsi üzrə: | 6 423 804.84 | 9 628 041.69 |
| Qarşısıalınma tədbirləri fondu | 200 679.92 | 142 023.57 |
| Təkrarsığorta əməliyyatları üzrə öhdəliklər: | | |
| təkrarsığortaçı üzrə | 480 483.79 | 366 641.84 |
| Təsisçi və ya səhmdarlarla hesablaşmalar | | |
| **III. QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | **411 452.58** | **973 905.96** |
| Kreditor borcları: | | |
| büdcə üzrə | 225 996.08 | 0.00 |
| əməyin ödənilməsi üzrə | 18 241.81 | 13 395.98 |
| sosial sığorta və təminat üzrə | 0.00 | 12 466.53 |
| asılı təşkilatlar üzrə | 0.00 | 0.00 |
| sair kreditorlar | 159 798.31 | 946 378.07 |
| Gələcək hesabat dövrünün gəlirləri | 7 416.38 | 1 665.38 |
| **CƏMİ ÖHDƏLİKLƏR** | **7 516 421.13** | **11 110 613.06** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **22 645 478.17** | **20 582 265.92** |

Maliyyə hesabatları 28 mart 2016-cı il tarixdə Rəhbərlik tərəfindən təsdiqlənmiş və onun adından imzalanmışdır:

İdarə Heyətinin sədri: Uğur Çağlar

Baş mühasib: Tapdıq Həsənov

## *31.12. 2015-ci il tarixə MƏNFƏƏT VƏ ZƏRƏRLƏR HAQQINDA HESABAT*

| | 2015 |
|---|---|
| **Gəlirlər** | **19 660 886.42** |
| **Əsas əməliyyat gəliri:** | **10 888 055.42** |
| Birbaşa sığorta üzrə sığorta haqları üzrə | 10 028 856.97 |
| Verilmiş sığorta ödənişləri və sığorta məbləğləri üzrə qaytarılan sığorta haqları üzrə | |
| təkrarsığorta üzrə təkrar sığorta haqları | 8 685.64 |
| sığorta ödənişlərində təkrarsığortaçıların payı üzrə | 516 280.26 |
| təkrarsığortaya verilmiş müqavilələr üzrə komissyon muzdlar üzrə | 334 232.55 |
| təkrarsığortaya verilmiş sığorta haqları | 0,00 |
| **Sığorta ehtiyatlarının dəyişməsindən əvvəl yaranan gəlir** | |
| **Xalis sığorta ehtiyatlarının dəyişməsi (müsbət və ya mənfi)** | **3 243 881.23** |
| **İnvestisiya gəlirləri üzrə** | **652 551.76** |
| **Subroqasiya gəlirləri** | 0.00 |
| **Sair gəlirlər** | **4 876 398.01** |
| **Xərclər** | |
| **Əsas əməliyyat xərcləri:** | **7 212 157.03** |
| Sığorta ödənişləri və sığorta məbləğləri üzrə | 4 354 242.44 |
| Qaytarılan sığorta haqları üzrə | 188 260.26 |
| Tənzimləmə xərcləri | 52 060.34 |
| Təkrar sığorta edilmiş sığorta haqları üzrə | 2 558 937.64 |
| Qarşısıalınma tədbirləri fonduna ayırmalar üzrə | 58 656.35 |
| **İşlərin aparılması xərcləri** | **5 512 694.66** |
| Sair xərclər | 108 422.07 |
| **CƏMİ XƏRCLƏR** | **12 833 273.76** |
| **Maliyyə mənfəəti(zərəri)** | **6 827 612.66** |
| **Vergiqoymadan əvvəl mənfəət(zərər)** | **6 827 612.66** |
| **Mənfəət vergisi** | 1 170 208.48 |
| **Hesabat dövründə xalis mənfəət(zərər)** | 5 657 404.18 |

Maliyyə hesabatları 28 mart 2016-cı il tarixdə Rəhbərlik tərəfindən təsdiqlənmiş və onun adından imzalanmışdır:

İdarə Heyətinin sədri: Uğur Çağlar

Baş mühasib: Tapdıq Həsənov

**31 Dekabr 2015 və 2014 - cü il tarixində başa çatmış il üzrə Pul vəsaitlərinin hərəkəti haqqında Hesabat**

| | 2 015 | 2 014 |
|---|---|---|
| **Əməliyyat fəaliyyətindən gəlirlər:** | | |
| Alınmış sığorta və təkrarsığorta mükafatları | 9 070 595 | 9 414 922 |
| Ödənilmiş sığorta və təkrarsığorta ödənişləri | (5 672 531) | (7 825 737) |
| Sığorta ödənişində təkrarsığortaçının payı | 183 016 | 5 119 798 |
| Ödənilmiş təkrarsığorta mükafatları | (2 447 845) | (2 441 992) |
| Alınmış sair gəlirlər | 123 716 | 137 956 |
| Sair debitor və kreditorlar üzrə alınmış (ödənilmiş) pul vəsaitləri | 1 021 931 | 1 216 048 |
| İşlərin aparılması üzrə ödənilmiş pul vəsaitləri | (5 267 247) | (3 636 315) |
| Əsas vəsaitlərin satışından daxil olmalar | - | - |
| Vergi xərci | (228 932) | (1 570 791) |
| **Əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitləri** | (3 217 297) | 413 888 |
| **Əməliyyat aktiv və passivlərində dəyişikliklər** | | |
| Banklarda yerləşdirilmiş depozitlərdə xalis artım | (1 342 296) | (188 000) |
| **Əməliyyat fəaliyyətindən daxil olan xalis pul vəsaitləri** | (4 559 593) | 225 888 |
| **İnvestisiya fəaliyyəti** | | |
| Əsas vəsaitlərin alınması | (3 358) | (47 172) |
| Qeyri-maddi aktivlərin alınması | (590) | (25 763) |
| **İnvestisiya fəaliyyətindən daxil olan xalis pul vəsaitləri** | (3 948) | (72 934) |
| **Maliyyə fəaliyyəti** | | |
| Qısamüddətli bank kreditləri faizləri | | |
| **Maliyyə fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkətinin yekunu** | | |
| **Xarici valyutaların məzənnələrin dəyişməsinin təsiri** | 4 993 178 | (232) |
| **Pul vəsaiti və pul ekvivalentlərinin il üzrə dəyişməsi** | 429 637 | 152 722 |
| **Pul vəsaiti və pul ekvivalentlərinin ilin əvvəlinə olan qalığı** | 194 593 | 41 871 |
| **Pul vəsaiti və pul ekvivalentlərinin ilin sonuna qalığı** | 624 230 | 194 593 |

İdarə Heyətinin sədri — Uğur Çağlar

Baş mühasib — Tapdıq Həsənov

**31 Dekabr 2015 və 2014-cü il tarixində başa çatmış il üzrə Səhmdar Kapitalında Dəyişikliklər haqqında Hesabat**

| | Nizamnamə kapitalı | Bölüşdürülməmiş mənfəət (zərər) | Cəmi |
|---|---|---|---|
| 1 yanvar 2014-cü il tarixinə qalıq | **10 642 294** | **535 532** | **11 177 826** |
| *Səhmdar kapitalın dəyişməsi:* | | | |
| İl üzrə xalis mənfəət/zərəri | (1 539 752) | | (1 539 752) |
| Keçmiş illərin mənfəətinə düzəliş edilməsindən gəlir | | | |
| Mənfəətin kapitala yönəldilməsi | 2 840 000 | (3 006 421) | (166 421) |
| Xalis dəyişmə | | | |
| 31 dekabr 2014-cü il tarixinə qalıq | **11 942 542** | **(2 470 889)** | **9 471 653** |
| Səhmdar kapitalın dəyişməsi: | | | |
| İl üzrə xalis mənfəət/zərəri | 5 657 404 | 0 | 5 657 404 |
| Keçmiş illərin mənfəətinə düzəliş edilməsindən gəlir | | | |
| Mənfəətin kapitala yönəldilməsi | | | |
| Xalis dəyişmə | | | |
| 31 dekabr 2015-ci il tarixinə qalıq | **17 599 946** | **(2 470 889)** | **15 129 057** |

İdarə Heyətinin Sədri: Uğur Çağlar

Baş mühasib: Tapdıq Həsənov

**Qeyd 1: Giriş**

Mən, Azərbaycan Respublikası Auditorlar Palatası tərəfindən verilmiş 08.10.2012-ci il tarixli SA/281 072742 saylı lisenziyaya əsasən fəaliyyət göstərən Sərbəst Auditor (VÖEN:2000455662) Abbasov Çingiz Abbas oğlu "Azərbaycan Sənaye Sığorta" ASC ilə (bundan sonra "Cəmiyyət"adlandırılacaq) ilə bağlanmış 09 mart 2016-cı il tarixli ÇA seriyalı 33 saylı müqaviləyə əsasən 01.01.2015-ci il tarixdən 31.12.2015-ci il tarixədək olan dövrün maliyyə təsərrüfat fəaliyyətini əks etdirən maliyyə hesabatlarının (31.12.2015-ci il tarixinə Balans, mənfəət və zərərlər, pul vəsaitlərinin hərəkəti və iştirakçı kapitalında dəyişikliklər hesabatları) audutini apardım.

Auditə 25 mart 2016-cı il tarixdə başlandı və 28 mart 2016-cı il tarixdə başa çatdı.

Audit ilə əhatə olunan dövr ərzində maliyyə-təsərrüfat fəaliyyətinə aşağıdakı şəxslər cavabdehdirlər:

İdarə Heyətinin sədri: Uğur Çağlar

Baş mühasib: Tapdıq Həsənov

Cəmiyyətin 31.12.2014-cü il tarixə bitmiş il üzrə maliyyə hesabatlarının auditi «İnter Audit» MMC tərəfindən aparılmışdır və ciddi çatışmazlıqlar aşkar edilməmişdir.

**Qeyd 2: Sifarişçi haqqında ümumi məlumat**

Cəmiyyətin əsas fəaliyyətini sığorta, təkrar sığorta və sığorta qanunvericiliyində yol verilən digər fəaliyyətlər təşkil edir. Cəmiyyət əsas fəaliyyət növünü 02 aprel 2012-ci il tarixində Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən verilmiş №000626 saylı qeydiyyata alınmış müddətsiz lisenziya əsasında həyata keçirir.

Cəmiyyət 26.12.2014-cü il tarixdə Azərbaycan Respublikası Vergilər Nazirliyinin Bakı şəhəri Vergilər Departamentinin Kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsində (VÖEN 9900011151) təkrar qeydiyyatdan keçərək nizamnamə kapitalını 11 000 000,00 (On bir milyon) manata çatdırmış və təsisçilərin nizamnamə fondundakı payları aşağıdakı kimidir:

"Anadolu İnvestment Kompani" MMC -70 %

"Azərbaycan Sənaye Lizinq" MMC- 5%

"Azərbaycan Sənaye Bankı" ASC- 25%

Cəmiyyətin təşkilati-hüquqi forması açıq tipli səhimdar cəmiyyətdir.

Cəmiyyətin hüquqi ünvanı: Bakı şəhəri, Səbail rayonu, Zərifə Əliyeva ev 3.

**Qeyd :3. Hesabatların tərtib edilməsinin əsasları**

**Maliyyə hesabatlarının tərtib edilməsinin əsasları.** Hazırkı maliyyə hesabatları, Beynəlxalq Mühasibat Standartları Şurasının dərc etdiyi Beynəlxalq Maliyyə Hesabatı Standartlarına

("BMHS"), o cümlədən Beynəlxalq Mühasibat Standartları Komitəsinin dərc etdiyi Beynəlxalq Mühasibat Standartlarına ("BMS") və Daimi Şərhlər Komitəsinin dərc etdiyi Şərhlərə uyğun olaraq tərtib edilmişdir.

Cəmiyyət mühasibat uçotunu Azərbaycanın mühasibat qaydalarına əsasən aparır.

Bu maliyyə hesabatları həmin mühasibat qeydləri əsasında hazırlanmış və BMHS-ə uyğun şəkildə düzəldilmişdir.

Maliyyə hesabatlarındakı məbləğlər Azərbaycan Respublikasının milli valyutası olan Azərbaycan manatı ilə ölçülmüşdür.

Maliyyə hesabatlarının hazırlanmasında, hesabat tarixində aktiv və passivlərin qeyd olunmuş məbləğlərinə, şərti aktiv və passivlərin açıqlanmasına və hesabat dövründə gəlir və xərclərin qeydə alınmış məbləğlərinə təsir edən təxminlərin, eləcə də fərziyyələrin istifadə edilməsi tələb olunur. Bu təxminlər Rəhbərliyin cari hadisələr və fəaliyyət barəsində mövcud biliklərinə əsaslansa da, faktiki nəticələr sonda həmin təxminlərdən fərqlənə bilər.

**Qeyd :4. Mühasibat uçotunun mühüm prinsipləri**

Hazırkı maliyyə hesabatlarının hazırlanmasında aşağıdakı mühüm mühasibat prinsipləri tətbiq edilmişdir:

Cəmiyyətin maliyyə hesabatları ilkin dəyər prinsipi əsasında hazırlanmışdır.

**Pul vəsaitləri və onların ekvivalentləri.**

Pul vəsaitləri nağd pul vəsaitləri, bank hesablarında saxlanılan və tələblər üzrə verilən pul vəsaitləridir.

Pul vəsaitlərinin ekvivalentləri qısa ödəniş müddətinə, yəni əldə olunduğu tarixdən 3 ay və ya daha az ödəniş müddətinə malik olan, pul vəsaitlərinin əvvəlcədən məlum olan məbləğinə asan çevrilə bilən və bu aktivlər üzrə dəyərin dəyişməsi riskinə cüzi məruz qalan yüksək likvidli qoyuluşlardır.

Pul vəsaitlərinin hərəkəti pul vəsaitlərinin və onların ekvivalentlərinin daxilolması və (və ya) xaricolmasıdır. Bloklaşdırılmış məbləğlər pul vəsaitləri və onların ekvivalentlərindən çıxarılmışdır.

**Sığorta ehtiyatları.** Cəmiyyət tərəfindən xərc və təkrarsığortaçıların hesabına sığorta ehtiyatları yaradılır.

**Satış üçün nəzərdə tutulan qiymətli investisiya kağızları.** Likvidlik ilə bağlı, yaxud faiz dərəcələrində, valyuta məzənnəsində və ya qiymətli kağızların dəyərlərində dəyişikliklərin edilməsi zərurətinə cavab olaraq hər an satıla bilən və qeyri-müəyyən müddət ərzində saxlanması nəzərdə tutulan qiymətli investisiya kağızları satış üçün nəzərdə tutulan kimi təsnif edilir.

**Torpaq, tikili və avadanlıqlar.** Torpaq, tikili və avadanlıqlar, yığılmış köhnəlməni və lazım olduqda ehtimal olunan zərər üçün ehtiyatları çıxmaqla maya dəyərində və ya yenidən qiymətləndirilmiş dəyərdə qeydə alınır. Yenidənqiymətləndirmə, aktivin xalis qalıq dəyərini bazar dəyərinə oxşar dərəcədə yenidən qiymətləndirmək üçün nəzərdə tutulmuşdur. Binalar və

**Torpaq, tikili və avadanlıqlar.** Torpaq, tikili və avadanlıqlar, yığılmış köhnəlməni və lazım olduqda ehtimal olunan zərər üçün ehtiyatları çıxmaqla maya dəyərində və ya yenidən qiymətləndirilmiş dəyərdə qeydə alınır. Yenidənqiymətləndirmə, aktivin xalis qalıq dəyərini bazar dəyərinə oxşar dərəcədə yenidən qiymətləndirmək üçün nəzərdə tutulmuşdur. Binalar və avadanlıqların satışından əldə olunan gəlirlər və zərərlər, onların balans dəyərinə istinadən müəyyən edilir və satış üzrə gəlir/(zərər) müəyyənləşdirilərkən nəzərə alınır. Təmir və saxlanma xərcləri, xərclər çəkildikdə mənfəət və zərər hesabatına silinir. İcarəyə götürülmüş binanın təmir xərcləri icarə müddətinə uyğun olaraq mənfəət və zərər hesabatına silinir.

**Köhnəlmə**

Köhnəlmə bərabər aşınma prinsipinə əsasən binalar və avadanlıqlara onların təxmin edilən faydalı xidmət müddəti ərzində aşağıdakı kimi hesablanmışdır:

| | |
|---|---|
| Kompüterlər və rabitə avadanlıqları | ildə 25% |
| Nəqliyyat vasitələrinə | ildə 25% |
| Mebel, qurğular və sair avadanlıqlar | ildə 20% |

**Mənfəət vergiləri**

Vergilər, Azərbaycan Respublikasının hal-hazırda qüvvədə olan qanunvericiliyinə uyğun olaraq hazırkı maliyyə hesabatlarında əks olunmuşdur. İl üzrə mənfəət və zərər hesabatında göstərilən mənfəət vergisi xərci, mənfəət vergisi və təxirə salınmış mənfəət vergisindəki dəyişiklikləri əks etdirir. Cari mənfəət vergisi, hesabat tarixinə qüvvədə olan vergi dərəcələrindən istifadə etməklə il üzrə ehtimal olunan vergiyə cəlb ediləcək mənfəət üzərindən hesablanır. Mənfəət vergisindən başqa bütün vergilər əməliyyat xərcləri kimi qeydə alınır.

Təxirə salınmış mənfəət vergisi, balans aktivləri və passivləri metodundan istifadə etməklə, aktiv və passivlərin vergi əsasları və onların maliyyə hesabatları məqsədləri üçün balans dəyərləri arasında yaranan bütün müvəqqəti fərqlər üçün hesablanır. Təxirə salınmış vergi aktivləri o dərəcədə qeydə alınır ki, bu müvəqqəti fərqlərin istifadəsi üçün gələcəkdə kifayət qədər vergiyə cəlb ediləcək mənfəətin mövcud olacağı ehtimal edilsin. Təxirə salınmış vergi aktivləri və passivləri, balans hesabatı tarixində tam və ya əsas etibarilə qəbul olunmuş vergi dərəcələri əsasında aktivin realizasiya və ya passivin ödəniləcəyi dövrdə tətbiq ediləcək vergi dərəcələrindən istifadə edərək hesablanır.

**Sığorta gəlirləri və xərcləri.**

Gəlir və xərclər mənfəət və zərər hesabatında hesablama metodu ilə qeydə alınır.

Faiz gəlirlərinə borc vəsaitləri üzrə hesablanmış mükafat daxildir

Haqqlar, komissiyalar və digər gəlir və xərc maddələri xidmətlər göstərildikdə hesablama metoduna əsasən qeydə alınır

**Xarici valyuta əməliyyatları.** Xarici valyutada əməliyyatlar həmin əməliyyat günü qüvvədə olan valyuta məzənnəsi ilə qeydə alınır. Xarici valyuta ilə aparılan əməliyyatlardan yaranan məzənnə fərqləri həmin gün qüvvədə olan valyuta məzənnəsindən istifadə etməklə mənfəət və zərər hesabatına daxil edilir. 31.12.2015-ci il tarixinə 1USD =1,5594 MANAT

Hal-hazırda, Azərbaycan Manatı digər ölkələrdə sərbəst dönərli valyuta hesab edilmir.

**Əvəzləşdirmə.** Balans hesabatında maliyyə aktiv və passivlərinin əvəzləşdirilməsi və alınan xalis məbləğin hesabatda əks olunmasına yalnız o zaman icazə verilir ki, qeydə alınmış məbləğlərin əvəzləşdirilməsi üçün hüquqi əsas və xalis əsasda və ya eyni zamanda aktivi realizasiya etmək və ya passivi ödəmək niyyəti mövcuddur.

**İşçilərə sərf olunan xərclərlə bağlı ayırmalar.** Cəmiyyətin işçilərə verilən əmək haqqları ilə bağlı sosial müdafiə fonduna köçürmələri, çəkildikdə xərc kimi tanınır və işçilərə sərf olunan xərclər kimi qeyd edilir.

**Qeyd 5. Pul vəsaitləri və onların ekvivalentləri:**

31.12.2015-ci il tarixə cəmiyyətin pul vəsaitləri aşağıdakı kimi olmuşdur:

| | 2015 |
|---|---|
| **Pul vəsaitləri və onların ekvivalentləri:** | **12 890 525.73** |
| kassa | 345.85 |
| hesablaşma hesabı | 79 417.08 |
| valyuta hesabı | 544 466.80 |
| depozit hesablar (orta illik faiz dərəcəsi 6%) | 12 266 296.00 |

31.12.2015-ci il tarixə xəzinə qalığının inventarizasiyasında iştirak etməmişik.

Pul vəsaitlərinin hərəkəti haqqında hesabatda depozit hesablarının qalığı pul vəsaitləri və onların ekvivalentlərindən çıxarılmışdır.

**Qeyd 7: Ehtiyatlar**

Ehtiyatlara xidmələrin göstərilməsi prosesində sərf edilən materiallar aiddir.
Ehtiyatlar ilkin dəyərlə əks etdirilir. Ehtiyatların ilkin dəyərinə onların əldə edilməsi, yerləşdiyi əraziyə gətirilməsinə çəkilən digər məsrəflər daxildir.

31.12.2015-ci il tarixə ehtiyatların inventarizasiyasında iştirak etməmişik.

**Qeyd 8:Qısamüddətli debitor borcları və sair aktivlər**

31.12. 2015-ci il tarixə cəmiyyətin debitor borclarının və sair aktivlərinin qalığı aşağıdakı kimi olmuşdur:

| | **2015** |
|---|---|
| Sair debitorlar | 4 255 593.56 |
| Birbaşa sığorta üzrə | 826 121.60 |
| Sığorta ehtiyatlarında qeyri-həyat sığortası sahəsi üzrə təkrarsığortaçıların payı: | 6 621.98 |
| Gələcək hesabat dövrlərinin xərcləri | 0.00 |
| Verilmiş avanslar | 0.00 |

**Qeyd 9-1: Torpaq, tikili və avadanlıqlar və Qeyri maddi aktivlər:**

31.12. 2015-cü il tarixə cəmiyyətin Torpaq, tikili və avadanlıqlar və Qeyri maddi aktivləri aşağıdakı kimi olmuşdur:

| | **2015** |
|---|---|
| Torpaq, tikili və avadanlıqlar qlıq dəyəri | **144 122.67** |
| Qeyri maddi aktivlər qalıq dəyəri | **157 765.27** |

Torpaq, tikili və avadanlıqlar və Qeyri maddi aktivlər cəmiyyətin normal fəaliyyətində istifadə olunan maşın və avadanlıqlardan, müxtəlif lisenziyalardan və proqramlardan ibarətdir.

**Qeyd 10: Kapital**

31.12.2015-ci il tarixə cəmiyyətin kapitalı aşağıdakı kimi olmuşdur:

| | **2015** |
|---|---|
| Ödənilmiş nominal (nizamnamə) kapitalı | 11 000 000.00 |
| Bölüşdürülməmiş mənfəət | 4 129 057.04 |

**Qeyd 11: Uzunmüddətli öhdəliklər**

| | **2015** |
|---|---|
| Sığorta ehtiyyatları -qeyri-həyat sığortası sahəsi üzrə | 6 423 804.84 |
| Qarşısıalınma tədbirləri fondu | 200 679.92 |
| Təxirəsalınmış vergi öhdəlikləri | 0,00 |
| Təkrarsığorta əməliyyatları üzrə təkrarsığortaçı üzrə öhdəliklər: | |
| Təsisçi və ya səhmdarlarla hesablaşmalar | 480 483.79 |

31.12.2015-ci il tarixə cəmiyyətin uzunmüddətli öhdəlikləri sığorta ehtiyatları, qarşısıalınma tədbirləri fondu və təkrarsığorta əməliyyatları üzrə öhdəliklərdən ibarətdir.

**Qeyd 12: Qısamüddətli öhtəliklər**

| | 2015 |
|---|---|
| **Kreditor borcları:** | |
| büdcə üzrə | 225 996.08 |
| əməyin ödənilməsi üzrə | 18 241.81 |
| asılı təşkilatlar üzrə (0,03%) | 0.00 |
| sair kreditorlar | 159 798.31 |
| Gələcək hesabat dövrünün gəlirləri | 7 416.38 |

Qısamüddətli öhtəliklərə xidmlərin göstərilməsi prosesində yaranan cari borclar aiddir.

**Qeyd 13: Gəlirlər**

2015-ci il üzrə cəmiyyətin gəlirlərinin açıqlaması aşağıdakı kimi olmuşdur:

| **Gəlirlər** | **2015** |
|---|---|
| birbaşa sığorta üzrə sığorta haqları üzrə | 10 028 856.97 |
| təkrarsığorta üzrə təkrar sığorta haqları | 8 685.64 |
| Təkrarsığortaya verilmiş müqavilə üzrə komissiyon muzdlar üzrə | 334 232.55 |
| Xalis sığorta ehtiyatlarının dəyişməsi (müsbət\mənfi) | 3 243 881.23 |
| investisiya gəlirləri üzrə | 652 551.76 |
| Sair gəlirlər | 4 876 398.01 |
| Sığorta ödənişlərində təkrarsığortaçıların payı üzrə | 516 280.26 |

**Qeyd 14: Xərclər**

2015-ci il üzrə cəmiyyətin xərclərinin açıqlaması aşağıdakı kimi olmuşdur:

| **Xərclər** | **2015** |
|---|---|
| verilmiş sığorta ödənişləri və sığorta məbləğləri üzrə | 4 354 242.44 |
| qaytarılan sığorta haqları üzrə | 188 260.26 |
| Tənzimləmə xərcləri | 52 060.34 |
| təkrarsığortaya verilmiş sığorta haqları üzrə | 2 558 937.64 |
| Qarşısıalınma tədbirləri fonduna ayırmalar üzrə | 58 656.35 |

| | |
|---|---|
| İşlərin aparılması xərcləri | 5 512 694.66 |
| Sair xərclər | 108 422.07 |

**Qeyd 15: Risklərinin idarə edilməsi**

Cəmiyyət daxilində risklərin idarə edilməsi maliyyə ( bazar, coğrafi, valyuta, likvidlik və faiz dərəcəsi), əməliyyat və hüquqi risklər ilə münasibətdə həyata keçirilir. Risklərin idarə edilməsinin əsas məqsədi risk limitlərini müəyyən etmək və müvafiq olaraq risklərin bu limitlər çərçivəsində qalmasını təmin etməkdir.

**Qeyd 16: Vergi qanunvericiliyi, Təəhhüdlər və şərti öhdəliklər**

Azərbaycan Respublikasında işgüzar fəaliyyəti tənzimləyən qanunvericilikdə və xüsusilə vergi qanunvericiliyində əməliyyatlar haqqında bir neçə şərhə yol verən maddələr mövcuddur. Bundan əlavə, kifayət qədər normativ əsası olmayan hallarda, vergi orqanları Cəmiyyətin fəaliyyəti və əməliyyatları, o cümlədən müəssisənin əməliyyatlarının təsnifləşdirilməsini, öz mövqelərindən çıxış edərək şərh edə bilərlər. Bu səbəbdən Cəmiyyətin rəhbərliyinin işgüzar fəaliyyətinə dair rəyi, vergi orqanlarının rəyi ilə üst-üstə düşməyə bilər. Müəyyən əməliyyat məsələlərinə vergi orqanları tərəfindən etiraz edilərsə, Cəmiyyətin hazırkı və keçmiş əməliyyatlarına cərimələr tətbiq edilə bilər. Əməliyyatlar üzrə faktiki vergi məbləğinin minimal ola bilməsinə baxmayaraq, cərimələr əhəmiyyətli ola bilər. Rəhbərlik hesab edir ki, hazırkı maliyyə hesabatları Cəmiyyətin əməliyyatlarını düzgün əks etdirir.

Vergi illəri, vergi orqanları tərəfindən yoxlanılmaq üçün üç il ərzində açıq qalır.

31 dekabr 2015-ci il tarixinə Cəmiyyətin əhəmiyyətli kapital öhdəlikləri olmamışdır.

**Qeyd 17: Ədalətli dəyərlə qeydə alınan maliyyə vasitələri**

Pul vəsaitləri və onların ekvivalentləri, eləcə də satış üçün nəzərdə tutulan qiymətli investisiya kağızları balans hesabatında ədalətli dəyərlə qeydə alınır. Satış üçün nəzərdə tutulan müəyyən qiymətli investisiya kağızları üçün açıq bazarda müstəqil qiymətlər mövcud deyil. Rəhbərlik həmin aktivlərin ədalətli dəyərini onların balans dəyərinə əsasən müəyyən edir.

**Qeyd 18: Əlaqəli tərəflərlə əməliyyatlar**

Hazırkı maliyyə hesabatlarında tərəflər o zaman əlaqəli hesab olunur ki, tərəflərdən biri digərinə nəzarət edə bilsin və ya digər tərəf maliyyə, yaxud əməliyyat qərarları qəbul edərkən ona mühüm təsir göstərə bilsin (BMS 24 "Əlaqəli tərəflərlə əməliyyatlar" Standartında açıqlandığı kimi). Əlaqəli tərəflər arasındakı münasibətləri nəzərə alarkən, həmin münasibətlərin hüquqi formasına deyil, məzmununa diqqət yetirilir.Əlaqəli tərəflərlə hazırkı maliyyə hesabatlarına mühüm təsir göstərə bilən əməliyyatlar olmamışdır .

Hesabat 2 (iki) nüsxədən ibarət tərtib edildi .

**Maliyyə hesabatı ilə tanış oldum**

**"Azərbaycan Sənaye Siğorta" ASC**

İdarə Heyətinin sədri: Uğur Çağlar

Baş mühasib: Tapdıq Həsənov